Ədalət.- 2021.- 4 fevral. S. 5.

# VƏTƏN SİZƏ OĞUL DEDİ

## İtkin düşdüyü bildirilən daha bir hərbçimiz şəhid olub



Azərbaycan Ordusunun müddətdən artıq xidmət edən (MAXE) hərbi qulluqçusu, 1992-ci il təvəllüdlü Tural Saləddin oğlu İsayevin Vətən müharibəsində şəhid olduğu müəyyənləşib.

Şəhid anadan olduğu Siyəzən rayonu, Yenikənd kəndinə gətiriləcək və dəfn edilib. Tural ailənin yeganə oğlan övladı olub.

## Şəhidimiz Hüseynli İbrahim



Hüseynli İbrahim İsa oğlu 30 may 1993-cü ildə Yevlax rayonu Qoyunbinəsi kəndində anadan olub.

2010-cu ildə orta təhsilini vurduqdan sonara Naxçıvan MR-a hərbi xidmətə yollanır və burda hərbi xidmətini başa vurur. İbrahim 2014-cü il aprel ayının 10-dan sonra MAXE olaraq hərbi xidmətə başlayır. 2016-cı il aprel döyüşlərində iştirak edir. 22 noyabr 2019-cu ildə ailə həyatı qurur. 27 sentyabr Vətən müharibəsində həm tibb qardaşı olaraq, həmdə döyüşçü olaraq şücaət və mərdliklə döyüşərək 19 oktyabr 2020-ci ildə qəhrəmancasına Şəhid olub.

İbrahim Hüseynlinin şəhadətindən sonra 30 dekabr 2020-ci ildə oğlu dünyaya gəlib. Şəhidimizin Vətənə əmanət övladına Alituran adı verilib.

## Dörd dost, dörd qəhrəman, dörd Şəhid



İqbal Astanlı, İsrail Cəfərzadə, Əkbər Hüseynov, Səbuhi Əsədov...

## ”Canavar” postunu düşməndən azad edən şəhid mayor



Mayor Rahib Babayev peşəkar hərbçi kimi səngərdə yetişmişdi. 18 illik xidmətinin 8 ili ən çətin döyüş bölgəsində - Murovda keçmişdi. Elə Murov yüksəkliklərinin azad edilməsi uğrunda döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə yüksəldi.

## MAXE Haqverdiyev Novruz




MAXE Haqverdiyev Novruz Əli oğlu 1996-cı ildə Daşkəsən rayonu Alunitdağ qəsəbəsində anadan olub. O, Vətən müharibəsində igidlik və mərdlik göstərərək 19.12.2020-ci ildə Kəlbəcər istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.

Şəhidimiz ailəli idi. 1 yaşlı qızı İnci Vətənə əmanət qalıb.

MAXE Novruz Haqverdiyev Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə ”Kəlbəcərin azad olunmasına görə” medalı ilə təltif edilib.

## Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub



Baş gizir Alıyev Vahid Abbas oğlu 18.02.1989-cu ildə Daşkəsən rayonu Alunitdağ qəsəbəsində anadan olub. O, Vətən müharibəsində igidlik və mərdlik göstərərək 02.10.2020-ci ildə Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.

Baş gizir Vahid Alıyev Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə”Vətən uğrunda” və ”Füzulinin azad olunmasına görə” medalları ilə təltif edilib.